# Akademik Sadıq Dadaşov

**Bu il görkəmli memar, tədqiqatçı-alim, Əməkdar incəsənət xadimi, SSRİ Dövlət mükafatı laureatı, AMEA-nın həqiqi üzvü Sadıq Ələkbər oğlu Dadaşovun anadan olmasının 120 illik yubileyidir. Bu münasibətlə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) tərtibatında akademikin həyatı, elmi fəaliyyətini əks etdirən biblioqrafik göstərici çapdan çıxıb.**




Vəsait 1926-2025-ci illəri əhatə etməklə "Həyatı və elmi fəaliyyətinin əsas tarixləri", "Əsərlərinin biblioqrafiyası", "Həyat və yaradıcılığı haqqında", "Redaktoru olduğu kitablar", "Alimin layihələri fotolarda" bölmələrindən ibarətdir. Burada akademikin müəllifi və tərtibçisi olduğu kitablar, elmi-podaqoji və ictimai-siyasi fəaliyyəti işıqlandırılıb.

Nəşrin elmi redaktoru MEK-in direktoru texnika elmləri doktoru Hüseyn Hüseynovdur. Redaktoru Biblioqrafiya şöbəsinin müdiri, fil.ü.f.d. Aytən Əliyeva, ixtisas redaktoru Elmi biblioqrafiya sektorunun rəhbəri Nərgiz Novruzova, tərtibçisi isə şöbənin əməkdaşı Afət Məmmədovadır.

Biblioqrafik göstərici memarlıq sahəsində çalışan alim və mütəxəssislər, ali məktəb tələbələri, o cümlədən geniş oxucu kütləsi üçün nəzərdə tutulub və çap nəşrlə yanaşı elektron şəkildə də təqdim olunub.